**AZƏRBAYCAN RESPUBLİKASI**
**SƏHİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASI**

# QƏRAR

**№ 57**

**Bakı şəhəri** 29 sentyabr 2016-cı il

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 25 fevral 2016-cı il tarixli 13 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət sanitariya-epidemioloji nəzarətinin həyata keçirilməsi ilə əlaqədar istifadə edilən sənədlərin tərtibi və tətbiqi Qaydaları"nda dəyişikliklər edilməsi barədə**

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 17 may tarixli 236-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 2141 nömrəli Sərəncamının 2-ci hissəsinin icrası məqsədi ilə, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 363 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi"nin 17-1.6-cı bəndinə uyğun olaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 25 fevral 2016-cı il tarixli 13 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət sanitariya-epidemioloji nəzarətinin həyata keçirilməsi ilə əlaqədar istifadə edilən sənədlərin tərtibi və tətbiqi Qaydaları"n əlavəsində "Şikayət edilmə" sözlərinin "Şikayət olunan hərəkətin dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla, şikayət edilmə" sözləri ilə əvəz edilsin və aşağıdakı məzmunda cümlə əlavə edilsin:

"Şikayət verildiyi hallarda, barəsində şikayət olunan hərəkətin dayandırılması ilə bağlı məsələyə, maraqlı şəxsin ərizəsinə əsasən və ya xidməti vəzifəsinə görə şikayət instansiyasının öz təşəbbüsü ilə, şikayət instansiyası tərəfindən dərhal baxılır və bu barədə müvafiq qərar qəbul edilir.".

2. Hüquq və daxili nəzarət sektoruna (E.Əzizov) tapşırılsın ki, bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Qərarın icrasına nəzarət nazir müavini Abbas Vəlibəyova həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Nazir** **Oqtay Şirəliyev**

**Kollegiyanın məsul katibi** **Nərgiz Şahbazova**